**KAMRAN İMANOV**

# AZƏRBAYCANIN İNKİŞAFINDA ƏQLİ MÜLKİYYƏT HÜQUQLARININ ROLU

**Bakı – 2018**

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**Azərbaycanın inkişafında əqli mülkiyyət hüquqlarının rolu. Bakı, 2018**

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun ABŞ Ticarət departamenti Kommersiya Haqqında Qanun İnkişaf Proqramı (CLDP), ABŞ-ın Bakıdakı Səfirliyinin birgə təşkilatçılığı və Müəllif Hüquqları Agentliyinin əməkdaşlığı ilə 27-28 fevral 2017-ci il tarixlərində keçirilən "Kiçik və Orta Həcmli Müəssisələr üçün Əqli Mülkiyyət Hüquqları" mövzusunda seminarda etdiyi "Azərbaycanın inkişafında əqli mülkiyyət hüquqlarının rolu" adlı prezentasiya əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, 2017, 2018**
**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2018**

# Mündəricat

I. Əqli mülkiyyət müasir rəqəmli dövrdə ............ 5

II. Azərbaycanın milli Copyright-sistemi …….…... 9

III. Müəllif Hüquqları Agentliyi rəqəmlərdə və faktlarda (son 5 il: 2012-2016-cı illər) ............ 22

IV. Copyright-sisteminin gələcəyinə baxış və çağırışlarına cavabların axtarışı ..................... 61

# I. Əqli mülkiyyət müasir rəqəmli dövrdə

## 1. Azərbaycanda əqli mülkiyyət obyektlərinin ümumi mənzərəsi.




**1.1.** ƏM-in 3 qolu:

a) Müəlliflik və oxşar (*o cümlədən əlaqəli*) hüquqlar,

b) Patent hüququ (*əmtəə nişanlarları daxil olmaqla*),

c) Qeyri-ənənəvi hüquqlar (*folklor* (ƏMH) *və ənənəvi biliklər* (ƏB)).

**1.2.** ƏMH = istifadəyə müstəsna hüquqlar (*hüquq sahibinin hökmdarlığı*), müəyyən mənada maddi dünyadakı «mülkiyyət» anlayışının analoqu.

**1.3.** ƏMH = əmlak (*kommersiya*) hüquqları – (*müddətli*) + qeyri-əmlak (*şəxsi*) hüquqlar – (*müddətsiz*).

**1.4.** Əmlak hüquqları bütün növ əqli mülkiyyət obyektlərinə məxsusdur, qeyri-əmlak hüquqları yaradıcılıq meyarı əsasında – bütün növ əsərlərə (*müəlliflik hüququ*), ifalara (*əlaqəli hüquqlar*), ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə (patent hüququ) və inteqral sxem topologiyalarına (*müəllifik hüququna oxşar hüquqlar*).

**1.5.** Qeyri-ənənəvi hüquqlarda (ƏMH və ƏB) əmlak və şəxsi hüquqlar ayrılmazdır və Azərbaycan xalqının mülkiyyəti kimi təsbit olunur.

**2. Əqli mülkiyyətin (ƏM) yaranması, əqli fəaliyyət (ƏF), əqli fəaliyyət nəticələri (ƏFN) və biliklər dövranı.**

1. ƏM bilikdən əmələ gəlir və bilik mənbəyinə çevrilir.
2. Biliklər dövranı: ƏF → ƏFN → ƏM.
3. Obyektiv əks olunmuş ƏFN = ƏM və ya ƏMH.
4. Biliklərin qeyri-maddi və maddi nemətlər olması.



*Hüquq borcu doğmur, borc hüququ doğur.*
(Şatobrian)

**3. ƏM mülki-hüquq məkanında.**

**3.1.** ƏM tanınması səbəbi: Cəmiyyətin xeyir və faydasının götürüldüyünü dövlət tərəfindən dərk edilməsi (*yalnız yaradıcılara hörmət və ehtiram deyil*).

**3.2.** ƏM tanınması prinsipi: Tarazlıq siyasəti, kompromislər məcmusu.

**3.3.** ƏM – ƏFN qorunması məqsədilə onların yaradıcılarına və hüquq sahiblərinə verilən müstəsna hüquqlardır.

**3.4.** Azərbaycanın ƏM doktrinası: ƏM – müstəqil institutu, mülkiyyət  hüququnu tamamlayan mülkiyyətdir.

**3.5.** ƏM – Mülki hüququn tərkib hissəsi (*əmlak dəyəri olan qeyri-maddi nemət* (ƏFN)).



## 4. Əqli mülkiyyətin milli qanunvericilik bazası və sərəncamçılığı.




Azərbaycanda ƏMH qoruyan 2 müdafiə xəttləri:

**4.1. I xətt** – 8 göst. qanun və müvafiq Məcəllələrin müddəaları.

**4.2. II xətt** – 2 qanun – «Haqsız rəqabət» və «kommersiya sirri haqqında» qanunlar.

## II. Azərbaycanın milli Copyright-sistemi

**1. Müasir dövrdə Copyright-ın əsas məqsəd və prinsipləri.**

**1.1. Əsas məqsəd** - Copyright-ın **sosial faydalığından** irəli gəlir, yəni istehlakçıların və hüquq sahiblərinin maraqlarının balansının təmin edilməsindən və bu məqsədə qulluq edən **ədalətli istifadə doktrinasından** (*kreativ nəticələrin həvəsləndirilməsi və sosial ehtiyaclar üçün sərbəst istifadə arasındakı tarazlıq*).

**1.2.** Təhlil göstərir ki, XIX-XX ə. müəllif-hüquq tarixi – daim dəyişən texnologiyalara (*teleqraf, foto, radio, yazı qurğuları, kompüter, İnternet*) hüquqi normaların uyğunlaşdırmasıdır.

**1.3.** «*İnternet hər şeyi dəyişdirir və Copyright onun yolunda durubsa, o da dəyişməyə məruz qalacaq*» (E.Samuels) və həqiqətən Copyright-ın müasir dəyişiklikləri müəllif-hüquq obyektlərinin rəqəmli təsvirindən və İnternet texnologiyaları ilə bağlıdır və bu dəyişikliklər aşağıdakılardır:

- interaktiv hüququn formalaşması, «nüsxə» və «kopiya» anlayışlarının mahiyyətinin dəyişməsi və əvəzinə «əlçatımlılıq» anlayışının inkişafı (adətən hüquqların pozulması ilə);
- «ədalətli istifadə» konsepsiyasının inkişafı;
- texnoloji müdafiə vasitələrinin yaranması və onların «ədalətli istifadəsinin» sərt tənzimlənməsi (adətən pozulması);
- «texno-yaradıcılıq» törəmə əsərlərin, o cümlədən fraqmentasiyanın, miksirləşmənin, multiplikasiyanın, digital samplingin, animasiyanın, mash-ups və s. «orijinallıq» meyarına təsiri;

- interaktiv paylanma serverlərinin (Vikipediya, Facebook, Myspace), platformaların (Youtube, Flickr), bloqların (Twitter, P2P, BitTorrent) piratçılığa təsiri.

**1.4.** Bununla yanaşı, Copyright-sisteminin makro-mühitindəki dəyişmə tendensiyaları:

- Maddilikdən qeyri-maddiliyə **iqtisadi keçid** (*hal-hazırda 20% maddi, əsasında ƏM olan 80% qeyri-maddi aktivlər təşkil edir və bu tendensiya sürətlə davam edir*);
- İnternetin əhatə dairəsinin genişlənməsi və ƏM obyektlərinin (*xüsusən müəlliflik hüququ ilə qorunanların*) kontentə çevrilərək, qlobal şəbəkəyə miqrasiyası («İnternet for Things», «Bulud hesablamaları», Facebook, Twitter və s.);
- Bilik və texnologiyaların Qərbdən Şərqə **geosiyasi keçidi** (*bilik yaradan tədqiqatlara investisiyaların payı Asiyada 1999-cu ildə - 24%, 2009-cu ildə - 32% və getdikcə artır*);
- ƏM-in rəsmi dairələrdən (*hökumət strukturlardan*) qeyri-dövlət subyektlərinə **siyasi keçidi** (misal: SOPA, PİPA, ACTA – *qanun layihələrinin qəbul edilməməsi*).

**1.5.** Bir qayda olaraq, Azərbaycanın Copyright-sistemi göstərilənləri nəzərə alır.

**2. Nümunə üçün (*biliklərin dövranı ilə*) kontentin dövranını göstərək.**

**2.1.**




**2.2. Burada:**

- Kontent – rəqəmləşdirilmiş, şəbəkəyə yerləşdirilmiş, yayılmaya hazır olan və forması tərəfindən məhdudlaşdırılmayan ƏM obyektinin məzmunudur.
- Obyektin təqdim edilmə formasının əhəmiyyətinin azalması və kontentdə onun məzmununa aksent edilməsi.
- Kiberməkanda kontentin istehsalı və emalı (*yenidən işlənməsi*), fraqmentasiyası və s. özü və hissələri ilə əməliyyat nəticəsində yeni formaların (*törəmə əsərlərin*) yaradılması və interaktiv paylaşması vasitəsilə yayılması təmin olunur.

### 3. Müəlliflik hüququ və digər oxşar ƏM hüquqlarının Milli qanunvericilik bazası.




### Copyright ilə bağlı beynəlxalq müqavilələrdə iştirak



## 3.1. Müəllif Hüquqları Agentliyi.




## 3.2. Agentliyin dövlət xidmətləri.

Dövlət Xİdmətləri Elektron Hökumət portalına qoşulub (5 xidmət). İstifadəçilər (Müəlliflər) portal vasitəsilə asan şəkildə xidmətlərdən istifadə etməklə öz işlərini xeyli rahatlaşdırırlar.

## 5. Digər təşkilatlarla qarşılıqlı əlaqə:

- Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi **1**
- Dövlət Gömrük Komitəsi **2**
- İqtisadiyyat Nazirliyi **3**
- Vergilər Nazirliyi **4**
- Mədəniyyət və Turizm Nazirliyi **5**
- Təhsil Nazirliyi **6**

- Elmlər Akademiyası **7**
- Ombudsman Aparatı **8**
- Məhkəmə və hüquq-mühafizə orqanları **9**
- Hüquq sahibləri, qeyri-hökumət, yerli özünü idarəetmə təşkilatları **10**




**6. Agentliyin başlıca məqsədi:**

Agentlik öz fəaliyyətində müəlliflik hüququ, əlaqəli hüquqlar, inteqral sxem topologiyaları, məlumat topluları, Azərbaycan folkloru nümunələri (*ənənəvi mədəni nümunələr*) və digər qeyri-maddi mədəni irs nümunələrinə əqli mülkiyyət hüquqları (*bundan sonra – əqli mülkiyyət hüquqları*) sahəsində vahid dövlət siyasətində iştirak və bu siyasətin həyata keçirilməsini, sahənin normativ tənzimlənməsini və nəzarətini, sahədə subyektlərin fəaliyyətini əlaqələndirməsini və şəffaflığını təmin etmək məqsədi ilə yaradılmışdır.

Agentliyin əsas məqsədi Azərbaycan Respublikasında əqli mülkiyyət hüquqları sahəsinin səmərəli fəaliyyətini, dayanıqlı inkişafını və şəffaflığını təmin etmək, müəllif-

lərin, hüquq sahiblərinin və Azərbaycan xalqına məxsus olan əqli mülkiyyət hüquqlarını qorumaq, əqli mülkiyyət hüquqlarının qorunması sahəsinin bilik və informasiya cəmiyyətinə təsirini artırmaq və əqli mülkiyyət hüquqları tənzimlənməsi sahəsində qabaqcıl prinsip və standartları əsas götürməkdir.

**7. Agentliyin fəaliyyət istiqamətləri:**

Əqli mülkiyyət hüquqları sahəsində vahid dövlət siyasətinin formalaşmasında iştirak və bu siyasətin həyata keçirilməsinin təmin edilməsi;

Əqli mülkiyyət hüquqları sahəsinin tənzimlənməsi ilə bağlı normativ xarakterli aktların qəbul edilməsi, müvafiq hüquqi aktların layihələrinin və müvafiq konsepsiya və məqsədli proqramların hazırlanmasında iştirak və onların icrasının təmin edilməsi;

Əqli mülkiyyət hüquqlarının qorunması və təmin edilməsi sahəsində qanunvericiliklə nəzərdə tutulmuş nəzarətin həyata keçirilməsi, yoxlamalar və monitorinqlərin, sahə subyektləri olan kollektiv idarəetmə təşkilatlarının akkreditasiyasının aparılması və hesabatlarının alınması, sahə subyektləri – hüquqi şəxslər olan hüquq sahiblərinə və tərkibində əqli mülkiyyət hüquqları olan malları istehsal edənlərə xidmət göstərməsi, onların fəaliyyətinin əlaqələndirilməsi və sahəyə aid təhlili arayışlarının hazırlanması;

Elm, ədəbiyyat və incəsənət sahəsində çalışan yaradıcı şəxslərin və digər hüquq sahiblərinin işgüzar fəaliyyəti xalqımıza məxsus olan əqli mülkiyyət növlərinin q-orunması üçün daha əlverişli hüquqi şəraitin, əqli mülkiyyətdən cəmiyyətin tələblərinə uyğun kütləvi istifadə yolu ilə sosial və iqtisadi fəaliyyətin yeni formalarının yaradılması və ƏM-i əmtəəyə çevirmək məqsədilə qanunvericili-

yin təkmilləşdirilməsinə aid təkliflərin hazırlanması və lazımlı tədbirlərin görülməsi;

Azərbaycan xalqına məxsus olan ƏM nümunələrinin – folklor (ənənəvi mədəni nümunələr), ənənəvi biliklər və digər növlərinin hüquqi qorunmasının həyata keçirilməsinin təmin edilməsi, onların mənimsənilməsinə və hüquqların pozulmasına qarşı çıxmaq və bununla bağlı müvafiq tədbirlərin görülməsi;

ƏM-in müasir iqtisadiyyatda artan roluna əsaslanan və əqli mülkiyyət hüquqları sahəsinin sənayenin (kreativ sənaye) inkişafına yönəldilmiş investisiya mühitini yaxşılaşdırmaq məqsədilə müasir elmi-texniki potensiala və beynəlxalq təcrübəyə uyğun olaraq əqli mülkiyyət hüquqları sahəsinə aid olan normativ və metodik xarakterli sənədlərin təkmilləşdirilməsi və kreativ sənayenin ölkənin ÜDM-dəki payını müntəzəm olaraq müəyyən edilməsi və təhlillərin aparılması, həmçinin ƏM aktivlərinin dəyərləndirilməsi sahəsində xidmətlərin göstərilməsi;

Rəqəmli informasiya texnologiyalarının və elektron ticarətin inkişafının tənzimlənməsi məqsədilə rəqəmli şəbəkələrdə (İnternet və İntranet) hüquqların qorunmasının təşkil edilməsi və həyata keçirilməsi, əqli mülkiyyətin bu istiqamətdən irəli gələn yeni obyektlərinə olan hüquqların qorunmasına aid mexanizmlərin yaradılmasına dair təkliflərin hazırlanması və müvafiq tədbirlərin görülməsi;

Hüquq sahiblərinin, o cümlədən Azərbaycan xalqına məxsus olan ƏM obyektlərinin dövlət qeydiyyatının aparılması, hüquq sahibləri və istifadəçilər haqqında milli informasiya sisteminin yaradılması və onun müntəzəm təkmilləşdirilməsi üçün müvafiq tədbirlərin görülməsi;

Hüquq sahiblərinin əqli mülkiyyət hüquqlarının həyata keçirilməsinin təşkil edilməsi və həyata keçirilməsi, əmlak hüquqlarının kollektiv əsasda dövlət qeydiyyatına alınmış və Agentlikdə qeydiyyatdan (akkreditasiyadan) keçirilmiş

təşkilatlar üçün fəaliyyətləri ilə bağlı uçotunun aparılması, normativ və təlimat xarakterli sənədlərin, onların fəaliyyətinə aid illik məcmunun hazırlanması, digər xidmətlərin göstərilməsi və qanunvericilikdə nəzərdə tutulmuş qaydada nəzarət edilməsi;

Əqli mülkiyyət hüquqlarını təmin etmək məqsədilə hüquq sahiblərinə beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi ilə bağlı işlərin təşkil edilməsi və həyata keçirilməsi, nəzarət markalarının hazırlanmasının təmin edilməsi və istifadəçiyə çatdırılması, onların istifadəsi ilə bağlı bazara nəzarət edilməsi, tərkibində əqli mülkiyyət obyektləri olan mallar gömrük sərhəddindən keçirilərkən onlara qanunvericilikdə müəyyən edilmiş qaydada və gömrük orqanlarının müraciəti əsasında gömrük nəzarətinin həyata keçirilməsinə yardım göstərilməsi;

Əqli mülkiyyət hüquqları sahəsində vahid informasiya sisteminin tətbiqinin, öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasının, internet portalının yaradılmasının, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin portalda yerləşdirilməsinin və bu informasiyanın daimi yeniləşdirilməsinin təmin edilməsi;

Öz səlahiyyətləri daxilində ƏM-in beynəlxalq mübadiləsinin və bu sahədə əməkdaşlığın təmin edilməsi;

Əqli mülkiyyət hüquqları mədəniyyətinin formalaşmasında iştirak edilməsi, əqli mülkiyyət hüquqları sahəsində müxtəlif növ hüquq sahiblərinin və istifadəçilərin təlim və treninqlərinin təşkil edilməsi, bilik və hazırlığının artırılmasının təmin edilməsi və Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər vəzifələrin yerinə yetirilməsi.

**8. Milli Copyright-sisteminin strateji hədəfləri**

**8.1.** Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-i il tarixli 800 nömrəli Fərmanı: «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyası.

**“Müasir çağırışlar” bölməsi:** “yaradıcılığın, innovasiyaların stimullaşdırılmasına və bazarın tənzimlənməsinə dəstək olan ƏM-in əhəmiyyətinin yüksələcəyi”.

**“Strateji baxış və prioritetlər” bölməsi:** “Mədəni irsin qorunub saxlanması, səmərəli idarə olunması, yeni yaradıcılıq nəticələrin qorunması və zənginləşdirilməsi... Konsepsiya çərçivəsində əsas prioritet kimi qəbul edilmiş və... müvafiq siyasət tədbirlərin həyata keçiriləcəyi nəzərdə tutulmuşdur”.

**“Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru” bölməsinin “iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı” 4.2 yarımbölməsindən:** “Əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa investisiya qoyuluşu üçün əlverişli şərait yaradılması və əqli mülkiyyətə əsaslanan kreativ iqtisadiyyatın davamlı inkişafı, ölkənin ÜDM-ində onun payının artırılması üçün tədbirlər həyata keçiriləcəkdir”.

**“Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru” bölməsinin “elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi” 4.3 yarımbölməsindən:** “İqtisadi məqsəd və resurslar, bilik və mədəniyyət sahəsinin vəzifələri ilə informasiya texnologiyalarının inkişafı arasındakı əlaqələrin müəyyənləşdirilməsi uzunmüddətli dövr üçün əqli mülkiyyətə dair Milli Strategiyada və ondan irəli gələn Dövlət Proqramında əksini tapan innovasiya potensialının inkişafına kömək edəcəkdir”.

**“İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi” bölməsindən:** “İKT və ƏM-in qarşılıqlı təsiri və ƏMH ilə qorunan bir çox obyektlərin qlobal rəqəmsal

şəbəkəyə çıxışı nəzərə alınaraq, online lisenziyalaşmaya və one-stop-shops formatında xidmətlərin göstərilməsinə əsaslanan rəqəmsal hüquqları idarəetmə sistemi yaradılacaqdır".

**"İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması" bölməsinin "Müasir təhsil sisteminin formalaşdırılması" 7.2 yarımbölməsindən:** "Ödənişsiz əsaslarla fəaliyyət göstərən təlim resursları yaradılacaq, bu resurslar, müəllif-hüquq lisenziyaları ilə təmin olunmaqla, təhsil prosesinə inteqrasiya ediləcək və açıq istifadəyə veriləcəkdir".

**"Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi" bölməsindən:** "Qanunvericilik təkmilləşdiriləcək, piratçılıq və kontrafaksiya da daxil olmaqla, ƏMH-nın pozulmasına qarşı səmərəli tədbirlər görüləcəkdir".

**"Mədəni irsin qorunması və səmərəli idarə edilməsi" bölməsindən:** "Qeyri-maddi mədəni irsin tərkib hissələrinin qorunub saxlanılması, bu sahədə qanunsuz mənimsəmələrin və əsassız itkilərin qarşısının alınması, folklor nümunələrinin və ənənəvi biliklərin UNESCO-nun xüsusi qorunma siyahısına daxil edilməsi üçün əlavə tədbirlər həyata keçiriləcək, həmçinin milli qanunvericiliyin kompleks şəkildə təkmilləşdirilməsi, müəlliflik hüququnun və əlaqəli hüquqların qorunması, beynəlxalq normativ hüquqi bazanın tətbiqi və inkişafında iştirak təmin ediləcəkdir. Azərbaycana məxsus mədəni sərvətlərin, o cümlədən muzeylərdə, kitabxanalarda və arxivlərdə qorunub-saxlanılan və ictimai varidat sayılan mədəni irs və digər ƏM nümunələrinin mərkəzləşmiş şəkildə rəqəmləşdirilməsi, mühafizəsi, hüquqi qorunması və beynəlxalq təşkilatlarla, həmçinin xarici dövlətlərin aidiyyəti qurumları ilə mübadiləsi təmin ediləcəkdir".

**8.2.**

- «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2 aprel 2014-cü il tarixli 359 №-li Sərəncamında göstərilir ki, dövlət müəlliflik hüququnun və əqli mülkiyyət hüquqlarının qorunmasını təmin edir.
- «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 20 sentyabr 2016-cı il tarixli 2345 №-li Sərəncamındakı Tədbirlər Planında (*5.2. «Yüksək texnologiyalar sektorunun inkişafı» bölməsi*):

| | |
|---|---|
| Yüksək texnologiyalar sahəsində patent alınması və elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılması mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması və həyata keçirilməsi üçün tədbirlərin görülməsi | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, **Müəllif Hüquqları Agentliyi**, Azərbaycan Milli Elmlər Akademiyası (2016-2019) |
| Qlobal rəqəmli şəbəkədə əqli mülkiyyət hüquqları ilə qorunan obyektlərdən istifadə edilməsinə "one-stop-shop" formatında və onlayn qaydada icazə verilməsinə əsaslanan rəqəmli hüquqları idarəetmə sisteminin yaradılması | **Müəllif Hüquqları Agentliyi** (2016-2017) |

| | |
|---|---|
| Yüksək texnologiya məhsulları bazarının inkişaf etdirilməsinə dair təkliflərin hazırlanması və həyata keçirilməsi üçün tədbirlər görülməsi | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi, **Müəllif Hüquqları Agentliyi** (2016-2020) |

**8.3.**

- «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 №-li Fərmanındakı «Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi»-nin Tədbirlər Planından (*3.2. «Beynəlxalq standartlara və idarəçilik prosedurların uyğunlaşmasının təmin edilməsi» bölməsi*):

| | | |
|---|---|---|
| Sənaye müəssisələrində milli brendlərin yaradılmasının təşviq edilməsi | İqtisadiyyat Nazirliyi (2017-2020) | **Müəllif Hüquqları Agentliyi**, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi |

# III. Müəllif Hüquqları Agentliyi rəqəmlərdə və faktlarda (son 5 il: 2012-2016-cı illər)

**1. Qanunvericilik və normativ-hüquqi bazanın yeniləşdirilməsi.**

**1.1.** Müəlliflik hüququ və digər oxşar ƏM hüquqlarının Uzunmüddətli Milli Strategiyası.




- ✓ Strategiya – inkişaf hədəfləri əsasında qurulan uzunmüddətli inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi.
- ✓ Proqram – Strategiyanın hədəf və məqsədlərinin nail olunmasına yönəldilən tədbirlər kompleksi.

- ✓ Milli Strategiyanın 30 məqsədinə uyğun 14 funksional istiqamət, 30 aqreqatlı funksiya və 90 adlı tədbirlər.
- ✓ Milli Strategiyanın ilkin variantı 2012-ci ildə təsdiq edilmiş, 2013-2016-cı il üzrə Dövlət Proqramı əsasında icra edilmişdir.
- ✓ 2016-cı ildə Milli Strategiya «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasını uyğunlaşmış və hal-hazırda 2017-2020-ci il üzrə Dövlət Proqramı hazırlanmışdır.

**1.2.** Qanunvericilik və normativ-hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə 2012-2016-cı illərdə 29 akt qəbul edilmiş və 20 aktın layihəsi təsdiqə təqdim edilmiş, o cümlədən 18 qanuna aid olan və 26 normativ-hüquqi aktlarla bağlı sənədlər.

| Qəbul edilmiş qanunvericilik aktları, o cümlədən | 2012 (qəbul edilib) | 2013 (qəbul edilib) | 2014 (qəbul edilib) | 2015 (layihə) | 2016 (layihə) | Yekun |
|---|---|---|---|---|---|---|
| Qanunlar | 2 | 5 | | 3 | 8 | 18 |
| AR Prezidentinin Fərmanları | 2 | 1 | 1 | | 2 | 6 |
| AR Prezidentinin Sərəncamları | | 6 | 1 | | | 7 |
| AR Nazirlər Kabinetinin Qərarları | | 5 | 2 | 5 | | 12 |
| AR Nazirlər Kabinetinin Sərəncamları | 1 | | | | | 1 |
| AR Müəllif Hüquqları Agentliyinin Qərarları | | 1 | | | | 1 |
| AR Hökuməti ilə ÜƏMT arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu və dövlətlərarası ikitərəfli sazişlər | | | 1 | 2 | | 3 |
| **Cəmi** | 5 | 18 | 5 | 10 | 10 | 48 |

**Qəbul edilmiş sənədlər** çərçivəsində:

- **«Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında» Qanun**, bununla bağlı İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində dəyişikliklər və bir neçə AR Prezidentinin Fərman və Sərəncamları, Nazirlər Kabinetinin Qərar və Sərəncamları, MHA sərəncamçılığında olan 4 qanuna müasir dəyişikliklər və normativ-hüquqi aktlar;
- Nəzarət markalarının və beynəlxalq standart eyniləşdirmə verilməsi ilə bağlı 5 normativ-hüquqi aktlar;
- Açıq təhsil resurslarına dair Konsepsiya və Rəqəmli Hüquqların idarə edilməsi üzrə «online» lisenziyalaşma və «one-stop-shops» formatında xidmətlərinə aid Tədbirlər Planı və s.
- **Layihələri baxılmaqda olan** «Rəqəmli şəbəkələrdə yayım təşkilatlarının hüquqlarının qorunması haqqında», «Əmlak hüquqlarını, o cümlədən rəqəmli şəbəkələrdə kollektiv əsasda idarə edən təşkilatlar haqqında» Qanunlar, «ÜDM-də kreativ sənayenin payı haqqında» normativ-hüquqi akt və digərləri.

**1.3.** 2012-2016-cı illərdə hökumətlərarası, nazirlik və komitələrin bağlanması nəzərdə tutulan müqavilə və sazişlərə ƏM-lə bağlı 208 rəy və təkliflər verilmişdir, piratçılığa qarşı mübarizənin səmərəliyinin artırılması ilə bağlı Avropa İttifaqı Komissiyası ilə bir Tvinninq layihəsi keçirilmiş və 2017-2019-cu illərə aid rəqəmli hüquqlarla və milli rəqəmsal aqreqatorla bağlı yeni Tvinninq layihəsi planlaşdırılıb.

**1.4.** Dövlət idarəçiliyinin təkmilləşdirilməsi və struktur islahatlarla bağlı 9 qanuna dəyişiklik, Agentliyin Nizamnaməsi, 2 normativ-hüquqi akt layihələri və «Publik hüquqi

şəxslər haqqında qeydlər (*kontinental Avropa və Postsovet məkanının bir sıra ölkələrinin təcrübəsi*)» adlı broşür hazırlanıb.

**2. Əsərlərin və digər ƏM obyektlərinin qeydiyyatı.**

**2.1.** Azərbaycan MDB məkanında ilk və yeganə ölkədir ki, əsərlərin və digər ƏM obyektlərinin dövlət qeydiyyatını aparır.

**2012-2016-cı illərdəki əsərlərin qeydiyyatı:**

| Müəlliflik hüququ obyektlərinin və müqavilələrin qeydiyyatı, o cümlədən | 2012 | 2013 | 2014 | 2015 | 2016 | Yekun |
|---|---|---|---|---|---|---|
| Ümumi qeydiyyat | 722 | 557 | 479 | 663 | 494 | 2915 |
| Elektron (online) qeydiyyat | 7 | 21 | 29 | 40 | 49 | 146 |
| Müqavilələrin qeydiyyatı | 14 | 23 | 10 | 13 | 12 | 72 |
| **Cəmi** | **743** | **601** | **518** | **716** | **555** | **3133** |

**2.2. Qeydiyyatdan keçirilmiş əsərlərin tərkibi (1996-2016-cı illər).**



Musiqili – 30%
Ədəbi, o cümlədən
kompüter proqramı – 25,42%
Elmi və tədris – 21,41%
Dizayn və dekorativ – 8 %
Toplular – 3,5%
Multimedia əsərləri – 0,78%
Fonoqramlar və yayım
təşkilatlarının verilişləri - 0,38%
Məlumat bazaları – 0,11%
Audiovizual – 4,56%
Qalanları – 5,5%




**2.3.** Əsəri qeydiyyatdan keçirən hüquq sahibinə nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş şəhadətnamə verilir. Mübahisə yaranan hallarda, digər sübutlar olmadıqda, qeydiyyat haqqında şəhadətnamə məhkəmə tərəfindən müəlliflik prezumpsiyası kimi tanınır.






**2.4.** «Qeydiyyat» sistemi E-gov.az portalına qoşulub, digər sistemlərlə inteqrasiya olunub və aşağıda göstərilən obyektlərin Agentliyin «Dövlət xidmətləri» çərçivəsində qeydiyyatını aparmaq imkanını yaradır.




**2.5.** Qeydiyyatın «Dövlət xidmətləri» çərçivəsində aparılması ardıcıllığı aşağıdakıdır:



**2.6.** Ümumi Qeydiyyat sistemi göstərilən kimi ifadə oluna bilər:




Qeydiyyat sisteminin ənənəvi və elektron xidmətlər vasitəsilə aparılması

**2.7.** Qeydiyyat proqramı http://qeydiyyat.copag.az/ ünvanında yerləşdirilib və aşağıda göstərilən məlumatları əldə etməyə imkan yaradır:




«Qeydiyyat» məlumat bazasından çıxarılan məlumatlar

**3. İnnovasiyali inkişaf: əqli mülkiyyətin vacib alətə çevrilməsində MHA-nin rolu.**

- ❖ Azərbaycanda son 13 ildə əldə olunmuş iqtisadi nailiyyətlərin əsasında müasir çağırışlara cavab verməklə həyata keçirilən islahatlar, cənab Prezident İlham Əliyevin düşünülmüş və gələcəyə yönəldilən «Azərbaycan modelidir».

Bu model davamlı iqtisadi islahatlara və iqtisadiyyatın diversifikasiyasına, qeyri-neft sektorunun inkişafına əsaslanır. Odur ki, Azərbaycan iqtisadiyyatı postneft dövründə minimal itkilərlə qarşılaşır.

«Azərbaycan modeli» – biznes mühitinin inkişafını, sərmayə qoyuluşunu stimullaşdıran inkişaf modelidir və heç də təsadüfi deyil ki, D.B.-nın «Doing Business 2017» hesabatında (*190 ölkə*) Azərbaycan dünyada 3 və daha çox islahatlar aparan 29 ölkələrdən biridir.

- ❖ Bunların davamı olaraq, növbəti dövrlərdə iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsi və sahibkarlığın inkişafına əsaslanan rəqabətqabiliyyətli milli iqtisadiyyata çevrilməsi, qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq innovasiyalı inkişafın təmin edilməsi əsas strateji hədəflərdən biri kimi müəyyən edilmişdir.
- ❖ Ölkədə inkişafın müxtəlif sahələri ilə bağlı Azərbaycan Respublikası Prezidentinin **“Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında”** 6 dekabr 2016-cı il tarixli 1138 №-li Fərmanı ilə **12 Yol Xəritəsi** təsdiq olunub.

Yol xəritələrindən birində (“Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi”) digər aidiyyəti orqanları ilə birlikdə Müəllif Hüquqları Agentliyi tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbir, digər 3 yol xəritəsində isə *əqli*

*mülkiyyət hüquqlarının ciddi qorunduğu biznes mühitinin yaradılması* (“Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”), *müəlliflik hüququnun qorunmasına dair mövzular haqqında məlumatlılıq səviyyəsinin artırılması* (“Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”) *və innovasiya sahəsində qanunvericilik bazası çərçivəsində* “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunu (“Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”) qeyd edilmişdir.

- ❖ Üstəlik, «Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı qəbul olunub (*13 iyul 2016-cı il*).
- ❖ Bunların əsasında MHA-nin innovasiyalı inkişafa dəstək fəaliyyəti aşağıdakı istiqamətlərdə qurulur:




**3.1.** İnnovasiya, innovasiyalı fəaliyyət və texnologiyaların kommersiyalaşdırılması.

- **Yenilik** – Əqli fəaliyyət nəticəsi (ƏFN) yeni olan strategiya, biznes-model, orqstruktur, marketinq

üsulu, proses, texnologiya, məhsul və ya onların hansısa kombinasiyası deməkdir.

- **İnnovasiya** – İqtisadi gəlir əldə etmək məqsədilə yeniliyin praktik tətbiqi deməkdir.
- **İnnovasiya** – innovasiyalı fəaliyyətin effektidir (*bazara çıxarılan yeni və ya təkmilləşdirilmiş məhsul və ya texnoloji proses*).
- **İnnovasiya prosesi** – ardıcıl mərhələlərdən ibarət olan innovasiyaların yaradılması, mənimsənilməsi və yayılması.




**ƏM obyektləri** – innovasiya fəaliyyətinin nəticələridir: onların əlaqəsi



### 3.2. Solou modeli: iqtisadi artım və texnoloji nailiyyətlərin (TN) iqtisadi artımda nəzərə alınması.




- $Y = A{\cdot}F(K, L) = A{\cdot}K^{\alpha} \cdot L^{\beta}$; A – TN indeksi (əmsalı);
- Solou parçalanması: $\Delta Y/Y = \Delta A/A + \alpha \Delta K/K + + \beta \Delta L/L$; $(\alpha + \beta \leq 1)$ – Kobb-Duqlas istehsalat funksiyasının kapitalın və əməyin elastiklik əmsalları;
- İqtisadi artım tempi = texnologiya hesabına artım tempi + kapital yığımı hesabına artım tempi + + əmək məsrəflərinin hesabına artım tempi.
- Agentliyin apardığı araşdırmalar:

| İllər | ÜDM (mln. man.) | Əsas fondlar (mln. man.) | İstehsalat cəlb olunan əhali (min adam) |
|---|---|---|---|
| 2005 | 12522,5 | 33939,3 | 4062,3 |
| 2006 | 18746,2 | 40641,2 | 4110,8 |
| 2007 | 28360,5 | 50183,0 | 4162,2 |
| 2008 | 40137,2 | 54735,8 | 4215,5 |
| 2009 | 35601,5 | 61436,6 | 4271,7 |
| 2010 | 42465,0 | 66659,5 | 4329,1 |
| 2011 | 52082,0 | 74186,4 | 4375,2 |
| 2012 | 54743,7 | 84262,4 | 4445,3 |
| 2013 | 58182,0 | 95451,1 | 4521,2 |
| 2014 | 59014,1 | 110677,9 | 4602,9 |
| 2015 | 54352,1 | 120314,5 | 4671,6 |

Texnologiya hesabına artım tempi

- $\alpha + \beta = 0,5 + 0,5 = 1$ :  ΔA/A = 0,031 → 3,1% ;
- $\alpha + \beta = 0,1 + 0,5 \leq 1$ :  ΔA/A = 0,071 → 7,1% ;
- $\alpha + \beta = 0,1 + 0,9 = 1$ :  ΔA/A = 0,075 → 7,5% .

Texnologiya hesabına artımın ehtiyatları mövcuddur.

**3.3.**

- Müasir dövrdə innovasiyalı inkişafın prioriteti texnologiyaların kommersiyalaşdırılmasıdır (T.K.), yəni innovasiyaların bazara çıxarılması, yenilikçilik məhsullarının istehlakçıya çatdırılması.
- **İnnovasiyaların kommersiyalaşdırılması prosesi:**




- **Kommersiyalaşma istiqamətləri:**




- Sadalanan istiqamətlər elmi-tədqiqat və innovasiya fəaliyyəti sahəsindəki qanunvericilik bazasının və / və ya normativ-hüquqi tənzimlənmənin təkmilləşdirilməsini tələb edir və beynəlxalq təcrübə aşağıdakı məsələlərə diqqət yetirmək zərurətini yaradır.




- Sadalanan aktual problemlərə aid MHA öz təklifləri çatdırıb.

**3.4.** Universitetlərdə (*elmi-tədqiqat institutlarında*) ƏM siyasətinin formalaşdırılması.

- MHA son iki ildə bu istiqamətdə 2 beynəlxalq simpozium (*ÜƏMT ilə*) və 1 milli dəyirmi masa keçirib, 3 metodik vəsait buraxaraq, marağı olan tərəflərə çatdırıb.








- Sadalanan sənədlərdə MHA-nin araşdırmaları nəticəsində aşağıdakı məsələlər öz əksini tapıb:

- ABŞ və Avropanın ƏM siyasəti ilə bağlı qabaqcıl universitetlərin təcrübəsi;

- ÜƏMT-nın bu məsələlərə aid metodik göstərişləri və nəşrlərinin Azərbaycan dilində təqdim edilməsi;

- «The Global Competitivenes Index»-ində (2013-2014, 2014-2015, 2015-2016, 2016-2017) və «Global Innovation Index»-ində (2014, 2015, 2016) Azərbaycan Universitetlərinin ƏM və innovasiya üzrə göstəriciləri;

- ƏM siyasətinin formalaşdırılmasına dair Yol Xəritəsi (*IP-Koordinator, Agentlik tərəfindən hazırlanmış Koordinator üçün sənədlər toplusu, təlim kursları, ƏM siyasəti haqqında Əsasnamənin hazırlanması, ƏMH bölünməsi və s.*).

- Bir nümunə kimi «Əqli mülkiyyət siyasətinin Əsasnaməsi»ndən:

**ƏM-in mənsubiyyətinin deduksiya ağacı və universitetlərdə ƏM-ə hüquqların bölünməsi**



Müəlliflik hüququ üçün əlavə istisnalar: İnstitutun xüsusi tapşırığı əsasında və yaxud sponsorun dəstəyi ilə tədqiqatın keçirilməsi üzrə müqavilənin və ya üçüncü şəxslə digər müqavilənin icrası zamanı yaradılan müəlliflik hüququ ilə qorunan əsərlər isitisnalar təşkil edir, bu zaman müvafiq müqavilələrin müddəaları nəzərə alınır.

**3.5. Təhsil Nazirliyi, AMEA və Elmin İnkişafı Fondu tərəfindən atılan vacib addımlar.**

- 2015-ci ildə Təhsil Nazirliyi və 2016-cı ildə AMEA Thomson Reuters sisteminə qoşuldu və Müəlliflik hüququ və ƏM hüquqları şöbəsi yaradıldı;
- 2016-cı ildə bir sıra universitetlərdə (*İqtisad Universiteti, Neft və Sənaye Universiteti və s.*) texnologiyaların ötürülməsi və ƏFN kommersiyalaşdırılması, Start-up-lar yaradıldı;
- Elmin İnkişafı Fondu qrantlara namizəd olan layihələrin MHA-də qeydiyyatdan keçirilməsini təmin etdirdi;
- ÜƏMT və Azərbaycan arasında «Universitet və elmi-tədqiqat institutlarında ƏM siyasəti üzrə Milli layihə»yə start verildi;
- Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində Müəllif Hüquqları Agentliyinin təklifləri əsasında yeni yazılan dərsliklərə nəşriyyatlardan ƏM hüquqlarını Nazirlik əldə edib və elektron dərslikləri İnternetdə CCBY lisenziyası əsasında açıq təhsil resursu kimi istifadəyə verdi.
- **Nəticələr:**




➢ Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu ilə əməkdaşlıq.

**2010-2015-ci illərdə qeydiyyatdan keçirilmiş, Dövlət Reyestrinə salınaraq, Şəhadətnamə verilmiş layihələrin sayı – 1089 (ildə orta sayla 180 layihə)**




**3.6. Kiçik və orta müəssisələrdə (KOM) ƏM siyasətinə dəstək.**

**ÜƏMT-nın MDB dövlətlərində kiçik və orta sahibkarlığın (KOS) rolunun artmasına dair «Tövsiyələr»-ində (*2008-ci il*) göstərildiyi kimi (*bundan sonra «Tövsiyələr»*):**

- Bir sıra sahələrdə KOS-ların iri müəssisələrlə müqayisədəki üstünlükləri çərçivəsində, xüsusən innovasiyaların işlənməsi və tətbiqi fəaliyyəti istiqamətində özünü qabarıq göstərir (*investisiyaların qaytarılması 2 dəfəyə qədər üstələyir*);
- Üstünlüklərin səbəbləri isə «Tövsiyələr»ə əsasən aşağıdakılardır:

- kiçik sahibkarlığın fərdi xarakter daşıyan yaradıcılıq üçün daha əlverişli şəraitin olması;

- yaradıcılıq fəaliyyətin kiçik sahibkarlıqda böyük müəssisələrə xas olan artıq təşkilatçılıqdan, iyerarxik quruluşdan uzaq olması, sərbəstliyə yönəldilməsi;

- burada yaradıcı şəxsin (*ixtiraçı*), mülkiyyətçinin və menecerin adətən vahid simada çıxış etməsi və bununla korporativ idarəetmənin əsas ziddiyyətinin aradan götürülməsi;

- yeni informasiya texnologiyaların burada tətbiqi, əvvəllər yalnız iri müəssisələrin imkanında olan şəraitin yaradılmasına qulluq edir və s.

**Beynəlxalq təcrübə bunları təsdiqləyir**:

► Belə ki, araşdırmalara əsasən, XX ABŞ və Qərbi Avropanın aparıcı ixtiraların 58-dən 46-cı fiziki şəxslərə və kiçik innovasiyalı firmalara məxsusdur, ABŞ-da Milli Elm Fondunun məlumatına əsasən, elmi-tədqiqat fəaliyyətinə yatırılan 1 dollara 500 qədər işçisi olan firmalar 24 dəfədən artıq iri firmalar ilə müqayisədə (*10000 artıq işçi*) yeniliklər gətirir.

► Texniki-texnoloji yeniliklərin əsas təşkilatçıları və istifadəçiləri KOS sektorunun müəssisələridir və onların innovasiya aktivliyinə dəlalət edən odur ki, burada çalışanların adambaşına düşən yeniliklərin sayı 4 dəfə iri təşkilatların müvafiq göstəricisini üstələyir. Özü də kiçik sahibkarlıq sektorunda çalışan

mütəxəssislərin innovasiya aktivliyi (*bir işçiyə düşən verilmiş patentlərin sayı*) təxminən 16 dəfə iri müəssisələrin müvafiq göstəricisindən çoxdur.

► ABŞ-ın Milli Elm Fondunun məlumatına əsasən, elmtutumlu kompaniyalar sırasında kiçik sahibkarlıq subyektlərinin payı 89%-dir. Qərbi Avropanın innovasiya biznesinin sənaye müəssisələri sırasında İrlandiyada – 75%, Almaniyada – 66%, Finlandiyada – 49%, Fransada – 46%, İtaliyada – 40%, Böyük Britaniyada – 39%-dir.

► Kiçik müəssisələr innovasiya sahəsində nəzərə çarpan dərəcədə fəallıq göstərirlər, ABŞ-da onlara dəstək kimi hələ 1982-ci ildə «The Small Business Innovation Development Act» qəbul edərək, 1992-ci ildə dəyişikliklər aparılıb. Bu Qanunun əsas istiqamətləri:

- Texnoloji innovasiyaların stimullaşdırılması;

- Elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin aparılmasına dövlət sifarişlərinə KOS potensialının cəlb edilməsi;

- Texnoloji innovasiyalarla məşğulluğa istedadlı insanların cəlb edilməsinə dəstək;

- Federal sifarişlər əsasında yerinə yetirilən elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin nəticələrinin kommersiyalaşdırılmasına dair xüsusi sektora yardım;

- Kiçik müəssisələrin ABŞ-ın milli ehtiyaclarını təmin edən xüsusi araşdırmalarından innovasiya sektoru firmaların kvalifikasiya siyahısına daxil edilməsi.

**Nəhayət ən vacibi odur ki, araşdırmalar göstərir ki, KOS müəssisələrin sayı və adambaşına düşən ÜDM-in arasında korrelyasiya mövcuddur.**

• Bunlara baxmayaraq, MDB məkanında kiçik sahibkarlığın innovasiya fəaliyyəti 70% qədər qeyri-kafi

qiymətləndirilir, halbuki iri firmalarında bu fəaliyyət yalnız 40% qeyri-kafi kimi təsbit edilir.

**Azərbaycan:** KOS subyektlərinin meyarı kimi müəyyənləşdirilib:

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyası | İşçilərinin orta siyahı sayı | İllik gəliri |
|---|---|---|
| Kiçik sahibkar | 25 nəfərədək | 200 min manatadək |
| Orta sahibkar | 25 nəfərdən 125 nəfərədək | 200 min manatdan 1250 min manatadək |
| İri sahibkar | 125 nəfər və ondan yuxarı | 1250 min manat və ondan yuxarı |

Meyara uyğun olaraq, 2015-ci il üzrə qeydiyyatdan keçmiş **hüquqi və fiziki sahibkarlıq subyektlərinin** 1% - iri, 2% - orta və 97% - kiçik sahibkarlardır.

- 2016-cı ilin ortalarına Azərbaycanda qeyri-neft sektorunda 83 mindən artıq KOS vahidi mövcud idi, yəni fiziki və hüquqi şəxslərin sayı (*özəl təsərrüfat subyektlərinin 79,7%*), lakin bunların UDM-dəki payı yalnız 5,8%, əlavə dəyərdə payı – 5,8% idi, ümumi mənfəətdə isə – 0,7% idi. Aşağıdakı qrafik deyilənləri nümayiş etdirir:




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

- Bu cür zəif iqtisadi göstəricilər fonunda KOS subyektləri aktiv fəaliyyətdə olan əhalinin 6,5%-i cəlb etmişlər.

**Deməli**, **bu sahədə əmək məhsuldarlığı çox aşağı**, KOS-un strukturu isə anormal idi: 37% - ticarət, 12,1% - inşaat, 10,7% - kənd təsərrüfatı (*halbuki, aqrar sektora ənənəvi yüksək maraq olan regionlarda 40%-dan artıq əhali yaşamaqdadır*).

- Bununla yanaşı, rəsmi statistik məlumatlara əsasən, 2016-cı il yanvarın 1-i vəziyyətinə ölkədə qeydiyyatdan keçən hüquqi şəxslərin 12 faizini kiçik müəssisələr təşkil etməsinə baxmayaraq, onların ÜDM-də payı 4 faiz, məşğulluqda 6,3 faiz, məhsul (xidmət) istehsalında isə 9,6 faiz olmuşdur.
- Göründüyü kimi, ölkədə sahibkarlıq subyektlərinin 99,2 faizini təşkil edən fərdi sahibkarların və kiçik müəssisələrin ÜDM-də payı çox kiçikdir.
- Cənab Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə qeyd olunduğu kimi, «Azərbaycan iqtisadiyyatında – ÜDM-də, məşğulluqda və ölkəyə olan xarici valyuta axınında KOS-un payı dəfələrlə artırıla bilər. Bu prizmadan yanaşaraq qeyd etmək olar ki, ölkənin gələcək inkişafında KOS-un payı son dərəcə böyük əhəmiyyət kəsb edir». Bəs hansı addımlar atılmalıdır?
- Strateji Yol Xəritəsi bunları göstərir:
- «Azərbaycanda KOS-un və bütövlükdə, ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar mövcuddur. Bunun üçün ümumi biznes mühitinin yaxşılaşdırılması, maliyyə resurslarına çıxış imkanlarının daha sərfəli və effek-

tiv təşkil edilməsi, kiçik və orta sahibkarlıq subyektlərinin yerli və xarici bazarlara çıxışının təmin edilməsi, bacarıqlı və ixtisaslı kadr təminatının yaradılması atılmalı olan vacib addımlardandır».

❖ Müqayisə üçün dünya üzrə KOS-un ÜDM-də və məşğulluqda payı göstərilir və qeyd edilməlidir ki, Avropa İttifaqına daxil olan ölkələrdə müəssisələrin 99%-i KOS-dur və onların ÜDM-dəki payı 60% çoxdur. ABŞ-da isə kiçik innovasiyalı müəssisələr ümumi məşğulluğun 3%-ni təşkil etdiyi halda yeni yaradılan iş yerlərinin 20%-i təşkil edirlər (*OESD, 2010*).




1. **İşçilərinin sayı 250 nəfərədək olan KOS subyektləri üzrə**
(*Şimali Amerikada isə işçilərinin sayı 300 nəfərədək olan KOS subyektləri üzrə*)
Mənbə: *Dünya Bankı*

- Aşağıdakı sxem ÜƏMT-nın araşdırması əsasında KOS-ların innovasiya inkişafına mane törədən amillərdir:




- Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə KOS-ın zəif tərəfləri və yaranan təhlükələr ətraflı araşdırılaraq, sadalanan problemlər çərçivəsində «araşdırma və innovasiya sahəsində fəaliyyət göstərən müəssisələrlə KOS subyektləri arasında əməkdaşlığın zəif olması» göstərilir və innovasiyaların təşviqinin gücləndirilməsi nəzərdə tutulur.
- **Yaranan vəziyyət KOS-larda ƏM təşviqinin, ƏM biliklərinin zəif olması və ƏM siyasətinin formalaşmaması ilə bağlıdır.**




- **Ən əsas məsələ isə KOS-ın IP-menecerinin olması və onun elmi-tədqiqat və konstruktor işləri (R&D) və biznesin inkişafı (BD) arasındakı əlaqənin yaradılması.**
- MHA KOS sahəsində ƏM təşviqi ilə bağlı elektron kurslar əsasında treninqlərin aparılmasına hazırdır.
- Dövlətin Strateji Yol Xəritəsində göstərildiyi kimi, KOS-ların inkişafı ilə bağlı **strateji hədəflər** sırasında «İnnovasiyaların təşviqi, KOS subyektləri üçün araşdırma və inkişaf fəaliyyətlərinin genişləndirilməsi» və burada

**Birinci prioritet:** Milli innovasiya sisteminin təkmilləşdirilməsidir;

**İkinci prioritet:** KOS-ın fəaliyyətini stimullaşdıran innovasiya infrastrukturunun formalaşdırılması.

► Nəticə etibarı ilə «2020-ci ilədək Azərbaycanda KOS-un inkişafı istiqamətində normativ-hüquqi baza daha da təkmilləşdiriləcək, institusional islahatlar davam etdirilərək, rəqabət mühitinin gücləndirilməsi və KOS agentliyinin yaradılması, bu sahədə fəaliyyət üçün zəruri intellektual və texniki resursla-

rın, eləcə də icazə sənədlərinin əldə edilməsi sisteminin bir az da asanlaşdırılması üzrə tədbirlər həyata keçiriləcəkdir».

► Hədəflər aşağıdakılardır:

| KOS-lar / İllər | ÜDM-də payı | Məşğulluqda payı | Qeyri-neft ixrac payı |
|---|---|---|---|
| 2020-ci il | 15% | 20% | 10% |
| 2025-ci il | 35% | 40% | 25% |
| 2025-ci ildən sonrakı illər | 60% | 70% | 40% |

**3.7. Müəlliflik və digər oxşar hüquqlara əsaslanan sənaye (*kreativ iqtisadiyyat*).**

❖ MHA 2003-cü ildən başlayaraq, uzun illərdir ki, kreativ iqtisadiyyatı araşdırmaları ilə müşahidə edir, tendensiyaları izləyir və təkliflərini hökumətə təqdim edir.

❖ Araşdırma ÜƏMT-nın Metodik Göstərişlərinə əsaslanır, Nazirlər Kabinetinin qərarı qəbul edilməkdədir və milli iqtisadiyyatın strukturu və statistikasına uyğunlaşdırılıb.

❖ Hesablamalar üçün dövlət statistika materialları istifadə olunur, olmadığı halda isə dövlət büdcəsinin hesabat göstəriciləri və ya ekspert qiymətləndirmələri istifadə olunur.

❖ Kontrafakt istehsal nəzərə alınmır.

❖ Kreativ iqtisadiyyatın payı 4 istiqamət (*sahə kateqoriyaları*) üzrə aparılır:
- core (*Copyright-İndustie-nin əsas sahələri*);
- independent (*birbaşa əlaqəli*);
- partial (*dolayısı yolla əlaqəli, qismən əsaslanan*);
- non-dedicated (*digərləri, xidmətçi*).

❖ «Kreativ», «İnnovasiyalı» və «Biliklərə əsaslanan» iqtisadiyyat.




❖ Milli araşdırmanın nəticələri (*2015-ci il daxil olmaqla*):




**Kreativ iqtisadiyyatın həcminin (*mln. manat*) illər üzrə dinamikası**




**Kreativ iqtisadiyyatın və əsas (*core*) hissəsinin ÜDM-dəki payının dinamikası** *(% ilə)*

❖ ÜƏMT-nın 2014-cü il daxil olmaqla hesablamaları ilə müqayisəli təhlil.




❖ Şəkildən göründüyü kimi, Azərbaycanın kreativ iqtisadiyyatı ÜƏMT-nın 2014-cü ildə 42 ölkə arasında apardığı kreativ iqtisadiyyatın araşdırılmasının orta göstəricisi (5,18%) səviyyəsindədir və bir sıra, o cümlədən inkişaf etmiş ölkələri üstələyir.

❖ Azərbaycanın kreativ industriyaya aid Milli hesabatı son 3 ildə ÜƏMT ilə birgə keçirilən simpoziumlarda müzakirə edilib.



- ❖ **Kreativ iqtisadiyyatın tərkibi**: müəllif hüququ, əlaqəli hüquqlar və qeyri-ənənəvi ƏM obyektlərinə əsaslanan iqtisadiyyat.
  - kompüter proqramları və İT-məhsulları;
  - kitablar, nəşrlər, media;
  - musiqi və filmlərin istehsalı, TV;
  - tətbiqi incəsənət, xalq yaradıcılığı və s.
- ❖ **BMT-nın "Kreativ iqtisadiyyat" hesabatından (UNCTAD, PROON, UNESCO, WIPO və TM): (*2011-ci ilə əsasən*)**

- 2002-2008-ci illərdə kreativ sənayenin ticarəti 2 dəfə artaraq 600 mln.$ həcmindədir.

- Qlobal iqtisadi böhran şəraitində (*beynəlxalq ticarətin 12 % azalması*) kreativ sənaye məhsullarının satışı hər il 14 % artmışdır.

- ▪ **Tövsiyələr:**

- kreativ sənayenin inkişafı sosial-iqtisadi inkişafın təminatçısıdır;

- kreativ sənayenin inkişafı sosial, təhsil, mədəni, iqtisadi, ekologiya və digər istiqamətlərin nəzərə alınması deməkdir;

- kreativ sənaye mədəniyyətin, incəsənətin, kreativliyin və yenilikçiliyin, biznesin və s. kəsişməsini və inteqrasiyasını nəzərdə tutur.

- ▪ MHA-nin kreativ iqtisadiyyatla bağlı təhlili bunları təsdiqləyir: beynəlxalq iqtisadi böhran və neftin qiymətinin azalması nəticəsində Azərbaycanın ÜDM-nin 2015-ci ildə 2014-cü illə müqayisədə artımının zəif olmasına və kreativ iqtisadiyyatın azalmasına baxmayaraq, ÜDM-dəki payı artım göstərir.

## 4. Piratçılığa qarşı mübarizə, səviyyəsi ilə bağlı monitorinqlər və hüquqların təminatı.

**4.1.** Piratçılıqla mübarizədə Azərbaycanda son illər əhəmiyyətli addımlar atılıb, o cümlədən:

- ✓ «ƏMH təminatı və piratçılığa qarşı mübarizə haqqında» Qanun qəbul edilib (*2012-ci il*), 2014-cü ildən bir sıra normativ-hüquqi aktlar əsasında tətbiqi başlanıb;
- ✓ Qanunun icrası ilə bağlı MHA-nin tabeliyində «ƏM hüquqlarının təminatı Mərkəzi» yaradılıb;
- ✓ Antipirat sahə Proqramı müvəffəqiyyətlə başa çatdırılıb;
- ✓ Tərkibində ƏM olan mallara, nüsxələrə nəzarət markalarının yapışdırılması başlanıb və bazarda nəzarət məqsədilə smart-mobil sistemi yaradılıb;
- ✓ Rəqəmli hüquqların idarəedilməsi ilə bağlı informasiya sistemi hazırlanıb;
- ✓ Piratçılığa qarşı Aİ ilə Tvinninq layihəsi (*2 il*) çərçivəsində 2 beynəlxalq seminar, 1 milli simpozium və 1 dəyirmi masa, o cümlədən Təhsil Nazirliyi ilə birlikdə «Elmi tədris və ədəbi əsərlərin mətnlərində plagiat və onun qarşısının alınması» mövzusunda dəyirmi masa keçirilib.

## 4.2.

# «ƏMH təminatı və piratçılığa qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununun strukturu

**Qanunun tənzimlədiyi məsələlər:**
- məhkəmə və inzibati prosedurların və tədbirlərin müəyyən edilməsi;
- əsərlərin, fonoqram nüsxələrinin və digər əqli mülkiyyət hüquqları obyektlərinin qeyri-qanuni istehsalının və yayımının qarşısının alınması.

***I fəsil***

*Ümumi müddəalar:*

- Əsas anlayışlar

-Qanunun tətbiq sahəsi

***II fəsil***

*ƏM hüquqları pozularkən mülki-hüquqi və inzibati prosedurlar və müdafiə vasitələri:*

- Sübutlar
- İnformasiya hüququ
- Məhkəmə qadağaları
- Zərərin ödənilməsi
- Məhkəmə qərarından irəli gələn tədbirlər
- Aşkarlıq tədbirləri və məhkəmə qərarlarının dərci
- Müvəqqəti tədbirlər
- Sərhəd tədbirləri
- İnzibati və cinayət prosedurları

***III fəsil***

*Piratçılığa qarşı mübarizə üzrə inzibati tədbirlər:*

- İdentifikasiya kodları
- Nəzarət markası
- Nəzarətin həyata keçirilməsi
- ƏM hüquqları obyektinin nüsxələrinin və nəzarət markalarının qeyri-qanuni istifadəsinə görə məsuliyyət

***IV fəsil***

*Yekun müddəalar:*

- Qanun qorunma müddəti bitməmiş ƏM hüquqlarının obyektlərinə şamil edilir
- Qanunun qüvvəyə minməsi



**4.3.** Nazirlər Kabinetinin qərarı ilə 2012-ci ildə yaradılan Agentliyin tabeliyində olan ƏMH Təminatı Mərkəzinin daşıdığı funksiyalardan biri tərkibində əqli mülkiyyət olan malların nəzarət markaları ilə təmin edilməsidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 09 iyun tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları"nın 1.3-cü bəndinə əsasən, audiovizual əsərin, fonoqramın, kompüter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinə münasibətdə nəzarət markası Müəllif Hüquqları Agentliyi tərəfindən verilir.

Piratçılığın iqtisadi, mədəni və sosial sferalarda doğurduğu mənfi nəticələrin aradan qaldırılmasında Nəzarət markalarının tətbiqinin səmərəli üsullardan biri olduğunu nəzərə alaraq, Təhsil Nazirliyinə aid olan nəşriyyatlar, həmçinin Təhsil Nazirliyinin tabeliyində olmayan, lakin tender nəticələrinə uyğun olaraq dərslikləri çap edən nəşriyyatlar tərəfindən buraxılan yeni dərslik nüsxələrinə nəzarət markalarının tətbiqi başlanıb.

Nəzarət markalarının tətbiqi ilə piratçılığın səviyyəsinin nəzərə çarpacaq dərəcədə aşağı düşəcəyi və bu sahədə vergidən yayınma hallarının azalacağı proqnozlaşdırılır.

Nəzarət markası unikal kodu və müvafiq seriyası ilə fərqlənən ciddi müdafiə sisteminə malik olan holoqrafik nişandır və onun əsasını təşkil edən holoqrafik yapışdırılan, metal plyonkadan hazırlanan kiçik etiketdir və bu etiket təkrarən yapışdırılmaqla mütləq dağılır.

- **Holoqramın nəzarət markasına çevrilməsi fərdiləşmə informasiya sistemi vasitəsilə Agentlikdə aparılır.** Bu zaman nəzarət markası xüsusi printerlər vasitəsilə unikal nömrələr və digər məlumatlar verilməklə çap etdirilir və laminasiya sistemi əsasında əlavə müdafiə imkanı yaradılır.

- İşlədilən proqram-aparat kompleksi bir sıra yeniliklərlə səciyyələnir: məlumat bazası hər bir, o cümlədən xarab olmuş markanın bütün «həyat mərhələlərini» izləyir. Bazardakı markalanmış məhsulun legitimliyini yoxlamaq məqsədilə smartfon mobil telefonlarından istifadə etmək imkanı yaradılıb.
- Müəlliflik hüququ və əlaqəli hüquqlar obyektləri olan nüsxələr nəzarət markası yapışdırılmadan satılırsa, həmin nüsxələrin qeyri-qanuni nüsxələr kimi satışdan çıxarılması və ya satışın dayandırılması, bu cür hallar protokollaşdırılaraq, yeni cəza sanksiyalarının tətbiq edilməsini nəzərdə tutur. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 229-2 maddəsinə əsasən, məhkəmə tərəfindən «materialları müsadirə edilməklə, onların hər birinə görə fiziki şəxslər 50 manat miqdarında, vəzifəli şəxslər 100 manat miqdarında, hüquqi şəxslər 150 manat miqdarında cərimə edilir».
- Nüsxələrə yapışdırılan nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması da inzibati və cinayət məsuliyyəti yaradır.



**4.4.**

- Görülən tədbirlər nəticəsində 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi kitab satışı sahəsində **61%-dən 29%-ə, audio-video məhsul bazarında 90%-dən 65%-ə, proqram təminatında 96%-dən 75%-ə** düşmüşdür.




**Qeyd.** *BSA-nın 2016-cı il Hesabatında proqram təminatı sahəsində piratçılığın səviyyəsi 84% göstərilmişdir.*

- Piratçılığa qarşı mübarizənin nəticələrinin 2012-2016-cı illərdəki dinamikası:

| Müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində piratçılığın səviyyəsi, o cümlədən: | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Kitab sənayesi (%-lə) | 33 | 30 | 30 | 30 | 29 |
| CD, DVD sənayesi (%-lə) | 68 | 67 | 66 | 65 | 65 |
| Softvery (%-lə) | 87 | 87 | 85 | 85 | 75 |
| Piratçılığın orta səviyyəsi (%-lə) | 62.7 | 61.3 | 60.3 | 60 | 56.3 |

**5. Hüquqların təminatı və ƏM mədəniyyətinin formalaşdırılması.**

**5.1.** Agentliyin 960 nömrəli “Qaynar xətt”i və ictimai əsaslarla fəaliyyət göstərən “Hüquq məsləhətxanası” il ər-

zində müəlliflərin və digər hüquq sahiblərinin istifadəsində olmuş, onların qaldırdıqları problemlərə operativ reaksiya verilmiş və həlli istiqamətində Agentliyin səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görülmüşdür.

- 2016-cı ildə müəlliflərin və digər hüquq sahiblərinin müəllif-hüquq məsələləri üzrə ***1450-dən artıq*** müraciət və sorğusuna baxılmış və qaldırdıqları məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində kömək göstərilmiş, müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 30 məhkəmə iclasında iştirak edilmiş, dövlət, məhkəmə orqanlarının və hüquq sahiblərinin sorğuları əsasında müəllif-hüquq məsələləri ilə bağlı ***15*** ekspert rəyi hazırlanmışdır.
- Müqayisə üçün:

| İddia ərizələri, ekspert rəyləri | | Məhkəmə iclaslarında iştirak | | Müəllif- hüquq məsləhətlərinin verilməsi | |
|---|---|---|---|---|---|
| 2014 | 10 | 2014 | 12 | 2014 | 1200 |
| 2015 | 13 | 2015 | 30 | 2015 | 1400 |




**5.2.** Maarifləndirmə tədbirləri çərçivəsində yalnız 2016-cı ildə aşağıdakı işlər görülmüşdür:




**Müəllif Hüquqları Agentliyinin təşkilatçılığı ilə keçirilən tədbirlər (2012-2016)**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | CƏMİ |
|---|---|---|---|---|---|---|
| Milli tədbirlər (*konfrans, seminar*) | 3 | 2 | 4 | 3 | 5 | 17 |
| Beynəlxalq tədbirlər (*konfrans, seminar*) | 2 | 3 | 4 | 3 | 4 | 16 |
| **YEKUN** | | | | | | 33 |

- Prezentasiyalar və nəşrlər çərçivəsində 6 kitab, 20-dən çox broşura və kitabça, o cümlədən "Universitet və elmi-tədqiqat idarələrində əqli mülkiyyət sahəsində siyasət haqqında nümunəvi əsasnamə", "Azərbaycanın universitetlərində və elmi-tədqiqat müəssisələrində əqli mülkiyyət sahəsindəki siyasət haqqında", "Azərbaycan Respublikasının universitetlərində əqli mülkiyyətin və elmi-tədqiqat fəaliyyətinin dəstəklənməsində Müəllif Hüquqları Agentliyinin rolu (*İnnovasiyalı inkişaf və universitetlərdə (elmi müəssisələrdə) texnologiyaların kommersiyalaşması yolları*)" və s. kitabçalar buraxılmış və yayılmışdır.

Bu istiqamətdə aparılan işlərin davamı olaraq, "Mədəniyyətin rəqəmsallaşması və rəqəmli copyright dayanıqlı inkişafda" adlı kitabça nəşr edilmiş, ƏM sahəsində mütəxəssislərin hazırlanması, mövcud kadr potensialının gücləndirilməsi məqsədi ilə Agentliyin tabeliyində ƏMH Təminatı Mərkəzində yaradılmış "**Distant təhsil və videokonfrans**" sistemi yaradılmış, interaktiv Smart-klass təlim-tədris Mərkəzi fəaliyyətə başlamış, təlimlərin həyata keçirilməsi üçün 200-dən çox nəzəri, onlarla elektron təlim materialları hazırlanmışdır.



**6. Qeyri-maddi irsin qorunması və multikultural siyasətə dəstək.**

**6.1.** Qeyri-maddi irsin tərkibi:




**6.2.** ƏMN və ƏB qorunması:




- **MHA-nın funksiyaları**: Azərbaycanda ənənəvi, adi formada istifadə, o cümlədən kommersiya məqsədi ilə sərbəstdir, qeyri-ənənəvi, adi olmayan formada istifadə zamanı təbii mahiyyət və məzmuna xələl gətirilməməklə istifadəyə icazə verilir və nəzarəti dövlət adından MHA aparır. Beynəlxalq miqyasda Azərbaycan folkloru nümunələri yalnız MHA-nin icazəsi ilə həyata keçirilir.
- **Beynəlxalq miqyasda** ənənəvi-mədəni nümunələr (*folklor*) və ənənəvi biliklər nə cür qorunur?
- Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası (*1886, Paris aktı 1971, Maddə 15 (4)*).

➢ Folklor nümunələrinin qorunması, ənənəvi biliklərin qorunması haqqında Beynəlxalq Sazişlər (*ÜƏMT-UNESCO, **müzakirə edilir***).
➢ "Qeyri-maddi mədəni irsin qorunub-saxlanması haqqında" Konvensiya (*UNESCO, 2004*).

**Qeyri-maddi mədəni irs nümunələrinin qorunması sxemi**




**6.3.** "2016-cı ilin Azərbaycan Respublikasında "Multi-kulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı" çərçivəsində həmin ildə xalqımızın folklor nümunələrinin və ənənəvi biliklərinin hüquqi qorunması, mədəni irsimizin mənimsənilməsi və saxtalaşdırılması cəhdlərinin qarşısının alınması və belə əməllərin ifşa edilməsi istiqamətində fəaliyyət çərçivəsində **"Azərbaycanın multikultural siyasəti, əqli mülkiyyət və erməni saxtakarlıqları"** mövzusunda konfrans, həmçinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Müəllif Hüquqları Agentliyi və Alban-Udin Xristian Dini İcmasının birgə təşkilatçılığı ilə **"Alban Apostol kilsəsinin keçmişi və bu günü"** mövzusunda beynəlxalq konfrans, **"Terror multikulturalizmə qarşı" layihəsi** çərçivəsində

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafına Dəstək Fondu və Diasporla İş üzrə Dövlət Komitəsi, Müəllif Hüquqları Agentliyinin birgə təşkilatçılığı ilə bir sıra konfranslar və dəyirmi masalar keçirilmişdir.

**6.4.** Bu çərçivədə **"Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir", "Об азербайджанской модели мультикультурализма (*на основе данных об идентичности*)", "Заметки о мультикультурализме", "Моральный террор: против нематериального и материального культурного наследия"** və s. kitabçalar nəşr edilmişdir.

**7. Əmlak hüquqların kollektiv idarə edilməsi.**

**7.1.** Kollektiv idarəetmə və müstəsna hüquqlara istisnalar və məhdudiyyətlər.



**7.2.** Azərbaycanda:

- audiovizual əsərlərin kollektiv idarə edilməsi (*Gildiya*);
- musiqili əsərlərin kollektiv idarə edilməsi (*Azərbaycan Müəllifləri*);
- ifaçıların hüquqları üzrə kollektiv idarəetmə (*fəaliyyəti yoxdur*).

• Kollektiv idarəetmə təşkilatları (KİT) qanunvericiliyə uyğun olaraq, ictimai birliklərdir.

• KİT: qeydiyyat (*Ədliyyə Nazirliyi və akkreditasiya* (MHA)).

• Dram əsərləri üzrə «böyük formalar» KİT-ı olmadığına görə MHA aparmalı olur.

**7.3.** 2015-ci ildə yığılan qonorar:

- audiovizual əsərlərə görə - 59200 man.;
- musiqili əsərlərə görə - 56350 man (*2014-cü il*);
- dramatik əsərlərə görə - 103037 man (*2015-ci il*).

**7.4.** 2015-ci ildə MHA tərəfindən yeni «Müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarını rəqəmli şəbəkələr də daxil olmaqla kollektiv əsasda idarə edən təşkilatlar haqqında» Qanun layihəsi hazırlanıb, müzakirələr aparılır, CİSAC ilə 2015-ci ildə konfranslar və görüşlər aparılıb.

# IV. Copyright-sisteminin gələcəyinə baxış və çağırışlarına cavabların axtarışı

**1. Müasir Copyright-sistemində özəlliklər və çağırışlar.**

**1.1. Rəqəmləşmə ilə bağlı informasiya və texniki xarakterli özəlliklər.**

- «Kontentin» informasiyalı təbiəti və onun «əsər» anlayışı ilə müqayisədə fərqi nəticəsində bir tərəfdən «məzmunun əhəmiyyətinin artması, formanın əhəmiyyətinin azalması», digər tərəfdən isə informasiya hüququnda «informasiyanın» yayılmasının Copyright-da açıqlanmış müəllif-hüquq obyektlərinin istifadəsindən fərqi (*D.Bell, A.Touraine, O.Toffler, J.Baudrilard, P.Drucker*).

**1.2. İqtisadi və hüquqi xarakterli özəlliklər:**

- Dəyər qanunlarının rəqəmli mühitdə çətin işlənməsi (*informasiyanın dəyəri yayımlanması ilə artan sonsuz resursundan fərqli olaraq, maddi obyektlərin dəyərinin artması «defisit» olmasından və yaranmasına daha çox əmək qoyulmasından asılıdır*);
- Müstəsna hüquqların mülkiyyət hüququ kimi çətin təsviri (*kontentin informasiya təbiyyətinə görə «məxsusluq» hüququna bərabər götürülən «istifadəyə qadağa» funksiyasının işlənməməsi*);

**1.3. Nəticələr:**

- «Müəllif – Hüquq sahibi – İstifadəçi» sisteminin qlobal şəbəkədə balansının pozulması, ziddiyyətlərin yaranması və bununla müəllif-hüquq obyektlərinin qeyri-qanuni istifadəsi, «enforcement» tədbirlərinin zəif təsiri.

**2. «Copyright-İnternet» konflikti və onun tərəfləri (*daşıyıcıları*):**

**2.1.**

- «**Copyright**» maraqlarının daşıyıcıları: Hüquq sahibləri, Müəlliflər;
- «**İnternet**» maraqlarının daşıyıcıları: İstifadəçilər.




**Obyektiv xarakterli münaqişə**




**Mahiyyət:** İntellektual məhsulun yaradılması və yaradılmasından tam gəlir əldə etmədiyi, həmçinin rəqəmsal məzmunun surətinin asan əldə edilməsi və uzaq məsafədən mübadiləsi.

**Subyektiv xarakterli münaqişə**




**Mahiyyət:** Hüquq sahibləri (*Müəlliflər*) çox vaxt faktiki pozucular – İstifadəçilərə qarşı anonimliyi və qeyri-leqal məzmunun geniş yayılması səbəbindən iddia sürə bilmirlər və buna görə günahı Provayderlərin üzərinə qoyurlar.

- **Nəticə:** Hüquq sahibləri, Müəlliflər və İstifadəçilər konfliktin əsas tərəfləridir (*daşıyıcılardır*). Provayderlər isə dolayısı yolla konfliktə cəlb olunan tərəfidir (*daşıyıcısıdır*).

**2.2. Aİ Copyright islahatlarına dair araşdırmaları (*2014-cü il*)**




Mənbə: *Avropa Komissiyasının hesabatı*

**Sorğu nəticələrinə əsasən:**

- **Şəbəkə İstifadəçiləri və Kontent İstehlakçıları** bütövlükdə, **Vasitəçilər, Provayderlər** müəyyən mənada kontentə asan transsərhəd əlçatımlığı təmin edən qanuni məhdudiyyətlər və istisnalar **tərəfdarıdırlar** və bununla, **Kontent İstifadəçilərinin hüquqlarının genişlənməsinin lehinədirlər**.
- **Hüquq sahibləri** (*o cümlədən müəlliflər, naşirlər, kollektiv idarəetmə təşkilatları*) qanunvericilikdə dəyişikliklərə (*istifadəçilər xeyrinə məhdudiyyətlər və istisnalar*) qarşı çıxış edirlər və **ənənəvi lisenziyalaşma sxemlərinə üstünlük verirlər.**
- **Üzv-dövlətlər hökümətləri və dövlət hakimiyyəti orqanları** – hüquq məkanının uyğunlaşdırma tərəfdarlarıdır və optimal variantı **«Avropada lisenziyalaşma»** **sənədində görürlər.**

**Beləliklə:**

a) «Müəllif hüquqlarının təmin edilməsi və müəllifliyə hörmət»:

- **Kontent İstifadəçiləri** enforcement-in sərtləşməsinə qarşı çıxış edirlər;
- **Müəllif və ifaçıların çoxu**, əksinə, hesab edirlər ki, mövcud qanunvericilik müəllif-hüquq obyektlərinin qorunmasını təmin etmir;
- Hüquq sahiblərinin bir qismi hesab edir ki, yeniləşmiş hüquqi tətbiqetmə sistemi Provayderlərə yönəldilməli və onlar istifadəyə görə əsər sahiblərinə (*Müəlliflərə*) kompensasiya ödəməlidirlər.
- Kollektiv idarəetmə təşkilatları kommersiya məqsədilə qeyri-qanuni istifadəyə görə sanksiyaların sərtləşdirilməsi tərəfdarlarıdır.

**3. Copyright islahatlarından gözləntilər.**

**3.1.** ƏM-in dünyada bugünkü fəaliyyət konteksti onun yarandığı vaxtdan prinsipial olaraq fərqlənir, həm iqtisadiyyatda, həm cəmiyyətdə ƏM-in yerinin dəyişməsi onu biliklərə əsaslanan iqtisadiyyatın dominantına, rəqəmsal cəmiyyətin vacib alətini və mədəni irsin təhlükəsizliyinin təminatçısına çevrilməsi, eyni dərəcədə ƏM-ə və onun roluna olan münasibətdə bizim düşüncə tərzimizin dəyişməsini tələb edir [«Copyright sistemini stress vəziyyətdən çıxartmaq üçün» (*F.Qarri*) yeni baxışlar, modellərin axtarışı labüddür].

- İnternet mədəniyyəti o dərəcədə artacaq ki, onun platformalarının ƏM-ə aid davranışa təsiri heç də hüquqdan az olmayacaq.

**3.2.** Rəqəmli mühitdə Copyright-a aid ÜƏMT-nın (*F.Qarri*) prinsip və tövsiyələri:

- Yanaşmanın uğuru online istifadə sxemlərinin tənzimlənməsi İstifadəçilərin gözləntiləri ilə uyğunlaşmalı, leqal istifadə və lisenziyalaşma qeyri-leqal istifadə qədər asan olmalıdır;
- Müəllif hüququnun məqsədi əsərlərin yaradılması və yayılması ilə bağlı bütün texnologiyalarla əməkdaşlıq etmək, bu texnologiyalar vasitəsilə yaranan mədəni mübadilədən faydalanmaqdır, yeni biznes-modellər yaradaraq köhnə texnologiyalar əsasında yaradılmış biznes-modellərin qorunmasına yönəldilməmək.
- Rəqəmsal dövrün yaratdığı fayl-kontent həm əsas məhsul, həm də rəqəmsal iqtisadiyyatın mənbəyinə çevrilir, eynilə rəqəmsal fayl kimi – bu həm texnologiyadır, həm də istehsal yeri.
- ƏM-ə qarşı yaranmış münasibətin dəyişməsinə təsir göstərmək üçün piratçılıq haqqında yox (*pirat adlandırılır, buna artıq əhəmiyyət vermirlər*), XXI ə.

mədəniyyətin maddi dayanıqları barədə daha çox danışmaq lazımdır.

- Çağırışlara ƏM-in idarə olunmasında adekvat cavab: hüquq, infrastruktur, mədəniyyətdə dəyişikliklər, institusional əməkdaşlıq və yeni biznes-modelləri əsasında birləşməsindən ibarət olacaq.
- «Müəllif hüququnun məqsədi – biznesin korporativ maraqlarının həvəsləndirilməsində deyil, mədəni dinamizmə yardım etməkdədir» (*F.Qarri*).
- ƏM-ə (*müəlliflik hüququna*) rəqəmli şəbəkələrdə yeni yanaşma istifadəni qadağan edən funksiyanın sərbəst istifadə funksiyası ilə (*qonorar ödəməklə*) əvəzləməlidir.

## 4. Azərbaycanın yanaşması, yeni biznes-modeli və implementasiyası.

### 4.1. Xronologiya.

- ✓ **2009-2010-cu il**: MHA tərəfindən İnternetdə hüquqların idarə edilməsi ilə yeni biznes-layihə təklif olunub.
- ✓ **08.2011 – 05.2013** illərdə bu layihə əsasında Avropanın aparıcı dövlətlərlə TVİNNİNQ layihəsi yerinə yetirilib.
- ✓ **09.2010-cu il** ÜƏMT-nın ƏM üzrə dünya mütəxəssislərinin və rəhbərlərinin iştirakı ilə «Azərbaycanda müəlliflik hüququ: imkanlar və perspektivlər» adlı prezentasiyada rəqəmli hüquqların idarə edilməsi işıqlandırılıb.
- ✓ Son 4 il (**2013-2016**) ərzində layihənin nəzəri əsasları və implementasiyası 5 beynəlxalq konfransda müzakirə edilib (*2-si ÜƏMT ilə birgə keçirilib*).
- ✓ **07.11.2012-ci ildə** İnternetin idarə edilməsi üzrə Ümumdünya Qlobal Forumunda Şərqi Avropa döv-

lətləri adından «Copyright və İnternet: maraqların toqquşması və kompromis axtarışı» adlı prezentasiya edilib.

- ✓ **06.2014-cü ildə** Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi çərçivəsində "Mədəniyyət və rəqəmsallaşmanın mübadiləsi üzrə birinci platforma - Bakı konfransı"nda «Mədəniyyətin rəqəmləşdirilməsi və rəqəmsal müəllif hüquqları» məruzə edilib.
- ✓ **08.2015-ci ildə** «İdarəetmə və optimallaşdırma» üzrə V Beynəlxalq konfransda məruzələr edilib.
- ✓ Azərbaycanın rəqəmli hüquqların idarə edilməsi ilə bağlı nüfuzlu mənbələrdə 7 elmi məqalə nəşr olunub, 1 kitab hazırlanıb və AR Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən dəstəklənib.
- ✓ **Sistemin yaradılması «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında öz əksini tapıb.**

**4.2. Hüquq, infrastruktur, biznes-model və mədəni dəyişikliklərin nəzərə alınması.**

- «Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında» Qanun (*2012*) və «İnternetdə kollektiv əsasda müəllif hüquqlarının idarə edilməsi haqqında» Qanun layihəsi və 10-a qədər normativ hüquqi aktlar.
- Əqli mülkiyyət hüquqlarının təminatı Mərkəzi, rəqəmli hüquqların idarə edilməsində «one-stop-shops» (*vahid pəncərə*) prinsipi və biznes-modelin məcburi lisenziyaya əsaslanması.

**4.3. Biznes-modelin nəzəri əsasları.**

- ❖ 3 maraqlı Tərəf (*Hüquq sahibləri, İstifadəçilər və Müəlliflər*) kibərməkanda «maraqları uyğun olmayan» koalisiya oyunu və kompromisin dayanıqlı ta-

razlıq nöqtələrinin axtarışı (*Provayderlərin davranışı ayrıca tənzimlənir*).

❖ Maraqlı tərəflərin seçim imkanları:

ⓐ İnternetdə müəllif-hüquq obyektlərindən sərbəst istifadə (*yəni İnternetdə müəllif hüququndan istisna*).

ⓑ İnternetdə müəllif-hüquq obyektlərindən qonorar ödəmək şərti ilə sərbəst istifadə (*yəni məcburi lisenziya - əlavə məhdudiyyətin daxil edilməsi*).

ⓒ İnternetdə müəllif-hüquq obyektlərinin istifadəsi ilə bağlı tələblərin sərtləşməsi (*yəni ənənəvi lisenziyalaşmanın sərt istiqamətdə inkişafı*).

**4.4. Tərəflərin üstünlük (prioritet) verdiyi variantları:**

- Hüquq sahibləri: ⓒ≻ⓑ≻ⓐ - daim, dəqiq (*permanent*)
- İstifadəçilər: ⓐ≻ⓑ≻ⓒ - çox güman (*most probably*)
  ⓑ≻ⓐ≻ⓒ - mümkün olan, bəlkə (*possible*)
- Müəlliflər: ⓑ≻ⓒ≻ⓐ - çox güman (*most probably*)
  ⓒ≻ⓑ≻ⓐ - mümkün olan, bəlkə (*possible*)

**Nəticələr:**

- qeyri-səlis (*fuzzy*) seçimli koalisiyalı oyunda güclü koalisiyalı tarazlıqla ⓑ və ⓒ variantında yaranır, ⓐ variantında heç bir dayanıqlı tarazlıq yoxdur.
- ⓑ və ⓒ variantlarının müqayisəsi göstərir ki, ⓑ **variantında daha güclü dayanıqlı** tarazlıq yaranır və o zaman Hüquq sahiblərinin «daim», Müəlliflərin və İstifadəçilərin «çox güman» üstünlük meylləri mövcuddur, özü də tam fərqli seçim olduğu halda (*Hüquq sahibləri* - ⓒ, *Müəlliflər* - ⓑ, *İstifadəçilər* - ⓐ).

**Təklif:** ⓑ→ⓒ→ⓐ ardıcıllığı daha əlverişlidir.

**Beləliklə: İstifadəyə qadağa (*mənfi*) funksiyası istifadəyə icazəli (*müsbət*) funksiyası ilə əvəz edilir –**

**qonorar ödəmək şərti ilə sərbəst istifadə (*məcburi lisenziya, o cümlədən kollektiv idarəetmə*).**

- Bunların əsasında Agentlikdə rəqəmli hüquqların idarə edilməsi ilə bağlı DRM sistemi qurulub və onun pilot variantı işlənilir.

**4.5. DRM-sisteminin məqsəd və təyinatı:**

- Rəqəmli kontentin xüsusiyyətlərindən, qeydiyyat, elektron idarəetmə və kommersiya, rəqəmli monitorinq və qeyri-qanuni istifadə hallarının müəyyən edilməsi xidmətlərin təminatına yönəldilən informasiya infrastrukturunun (*platformasının*) yaradılması.
- Agentliyin Milli mədəni rəqəmli kontentin Aqreqatoruna çevrilməsi.




**4.6. Altsistemlər:**

- Onlayn rəsmiləşdirmə və qeydiyyat.
- Watermark vasitəsilə kontentin müdafiəsi.
- Meqaverilənlərə əsaslanan rəqəmli kontentin idarə edilməsi.
- Monitorinq və istifadənin dəyərləndirilməsi.
- E-Sales həyata keçirilməsi.

**4.7. Watermark (su nişanı) və identifikasiya sistemi.**




**Beləliklə**, sistem 2 istifadə rejimi nəzərdə tuta bilər:

a) Kibermonitorinq: şəbəkədə əsərlərin istifadəsinin müşahidəsi və hüquq sahibinə istifadəyə görə kompensasiyanın ödənilməsi;

b) E-shop istifadə rejimi.

## E-sales informasiya strukturu




Su nişanələri (*Watermark*) sənədlər, şəkillər, videolar, musiqilər bir sözlə bütün faylların üzərinə xüsusi üsullarla yerləşdirilmiş logo və ya yazıları (*məsələn: sayt adı, qurumun adı*) təmsil edir. Bu faylların üzərinə su nişanələri yerləşdirməklə, ilk nəşri edən qurumu bildirir. Faylların şifrələri yalnız Müəllif Hüquqları Agentliyi faylın orijinallığını təsdiq edə bilər.




"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli gələn aidiyyəti vəzifələrin icrasını təmin etmək məqsədi ilə "Qlobal rəqəmli şəbəkədə əqli mülkiyyət" hüquqları ilə qorunan obyektlərdən istifadə edilməsinə "one-stop-shop" formatında və onlayn qaydada icazə verilməsinə əsaslanan rəqəmli hüquqları idarəetmə sistemi yaradılmış, elektron bazanın formalaşdırılması məqsədilə indiyə kimi 1900-dən çox, o cümlədən 584 mətn əsəri, 655 audio material, 225 video material, 114 foto, 411 müəllif və digər hüquq sahibi haqqında məlumat rəqəmsallaşdırılıb və elektron bazaya yerləşdirilmişdir.




Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.